# Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Azİİ-İT akademiyaları açılıb

Mayın 10-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Azİİ-İT akademiyalarının rəsmi açılışı olub. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə təsadüf edən açılış mərasimində rektor, professor Mustafa Babanlı, professor-müəllim heyəti, tələbələr, eləcə də qonaqlar - Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Elnur Məcidov, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun rəhbəri Elçin Zeynalov iştirak ediblər.





Tədbiri giriş sözü ilə açan rektor mərasimin ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə təsadüf etməsini xüsusi olaraq qeyd edib. O, ADNSU-da Azİİ-İT akademiyalarının yaradılmasını ulu öndərin qeyri-neft sektorunun və təhsil sisteminin inkişafı istiqamətində başladığı strategiyanın uğurlu davamı kimi dəyərləndirib. Rektor eləcə də aprel ayının əvvəlində erməni təxribatına layiqli cavab verərkən şəhadət qazanmış şəhidlərimizin 40 mərasiminin keçirildiyini vurğulayıb. Bu tarixlərə nəzər salaraq, ulu öndər Heydər Əliyevin və şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Akademiyaların yaradılması ilə bağlı fikirlərini bildirən M.Babanlı əsas məqsədin innovativ texnologiyaların təhsilə gətirilməsindən ibarət olduğunu, tələbələrin biliklərinin inkişaf etdirilməsi və beynəlxalq sertifikatla təmin edilməklə əlavə imkanların yaradılmasının nəzərdə tutulduğunu deyib. Bildirib ki, akademiyalara bütün fakültələrdən axın var. Təlimlərdə iştirak edən ən yaxşı tələbələrə sertifikatlar veriləcək. Sertifikat alan tələbə informasiya texnologiyaları bazarı üçün tam yetişmiş bir mütəxəssis olacaq. Qeyd olunub ki, 2015-2016-cı tədris ilinin başlanğıcından universitetdə Oracle Academy, Cisco Academy və Mikrosoft Academyaları qeydiyyatdan keçib. Tələbələr akademiyalara cəlb olunaraq təlimlər keçirlər. İlk dəfə olaraq cari semestrdən tələbələrin seçim üsulu ilə akademiya proqramları çərçivəsində təlimlərdə iştirakı təmin olunacaq. Təlimlər AİST Grup şirkətinin beynəlxalq sertifikatlı mütəxəssislərinin iştirakı ilə həyata keçiriləcək və materiallarından asılı olaraq təlimlər 8, 12, 16 və 24 dərs olacaq. 120 tələbənin iştirak etdiyi təlimlər 2-ci semestrdən başlayır və və cari təlimlər iyun ayının sonuna qədər davam edəcək. Qeyd olunan təlimlər tələbələrdə fundamental biliklərin formalaşdırılması üçün nəzərdə tutulub. Növbəti tədris ilindən cari təlimləri keçmiş tələbələr üçün daha yuxarı səviyyəli təlimlər təşkil ediləcək. Tələbələrin universitet dərsləri ilə bağlı öhdəliklərini tam icra edə bilmələri məqsədilə təlimlərin əksəriyyəti şənbə günləri keçirilir. Lakin tələbələr laboratoriya işlərini icra etmək üçün boş vaxtlarında Azİİ-İT Club mərkəzindən faydalana biləcəklər. Eyni zamanda tələbələrin boş vaxtlarında texniki ədəbiyyatlardan faydalanması məqsədilə artıq texniki ədəbiyyatların toplanmasına başlanılıb.

Tədbirdə çıxış edən Y.Piriyev İT akademiyaların fəaliyyətinə uğurlar diləyib. Bildirib ki, ali təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsildə yeni mühitin yaradılması, mühəndislik üzrə ixtisaslaşan tələbələrin İT üzrə sertifikatlaşması bu günün tələbidir. İşlə təmin olunma faizinə görə ADNSU-nun təhsil müəssisələri arasında ilk pillələrdə dayandığını qeyd edən Y.Piriyev Azİİ-İT klubunun açılışından sonra faiz göstəricisinin daha da yüksələcəyini vurğulayıb.

E.Zeynalov, eləcə də E.Məcidov İT akademiyalarının yaranmasını təhsildən biznesə atılan müsbət addımlardan biri kimi dəyərləndirməklə, bunu ADNSU-nun uğuru, ölkə iqtisadiyyatına töhfə olacaq layihələrdən sayıblar.

Tədbir Azİİ-İT klubun açılış mərasimi ilə davam edib.

**Mətbuat xidməti**